Mürsəl NƏCƏFOV

# GÖRKƏMLİ NƏQQAŞ

Respublikamızın xalq rəssamı görkəmli dekorativ sənət ustası Lətif Kərimov ömrünün qırx ilini milli sənətlərimizin inkişafına sərf etmişdir. Azərbaycan xalçasının, milli zərgərlik sənətimizin və ümumiyyətlə, bizim ornamental dekorativ sənətlərin bugünkü inkişaf səviyyəsi Lətif Kərimovun adı ilə bağlıdır.

Lətif Kərimov yalnız Azərbaycanda deyil, ölkəmizin hər yerində, habelə xaricdə mahir bir nəqqaş kimi yeni milli xalça nümunələri yaradan, xüsusilə, süjetli xalçalar yaradan bir nəqqaş kimi tanınmışdır. Hələ otuzuncu illərin məhsulu olan "Firdovsi" və "Rustaveli" xalçaları, Nizami Gəncəvinin poemalarına həsr etdiyi süjetli xalçalar və monumental xalılar Lətif Kərimovu zəmanəmizin ən görkəmli xalça ustalarından biri kimi şöhrətləndirmişdir.

Lətif Kərimov illərdən bəri Azərbaycan xalçasının tarixini öyrənib, bizim xalça sənətinin bədii-texniki xüsusiyyətlərini tədqiq edir. Onun "Azərbaycan xalçası" əsərinin birinci cildi dünyanın bir çox ölkələrində mütəxəssislərin yüksək qiymətini qazanmışdır. İndi Avropada, Amerikada və Asiyada nəşr edilən xalça albomlarında, xalça sənətinə həsr olunmuş elmi əsərlərdə Lətif Kərimovun kitabından ən dəyərli bir mənbə kimi istifadə edilir.

Lətif Kərimov böyük müvəffəqiyyətlə təkcə xalçaçılıq, bu sənətin öyrənilməsi sahəsində işləmir. Dekorativ-tətbiqi sənətlərin elə bir növü, elə bir forması yoxdur ki, Lətif Kərimov öz bilik və təcrübəsini bu sahələrdə tətbiq etməmiş olsun. Lətif Kərimovun eskizləri əsasında yaradılmış milli zərgərlik nümunələri və interyer bəzəkləri, kitab tərtibatı və plakatlar, döş nişanları və poçt markaları - bunların hamısı sənətsevər adamlarımızın yüksək qiymətini qazanmışdır.

1954-cü ildə Moskvada Lətif Kərimovun yaradıcılığına həsr olunmuş xüsusi bir sərgi açılmışdı. Hamımızın yadındadır: moskvalılar Azərbaycan sənətkarının əsərlərinə böyük maraq göstərirdilər. Təəssürat kitabında Lətif Kərimovun yaradıcılığını yüksək qiymətləndirən rəylər yazılırdı. Sonralar Lətif Kərimovun əsərləri Azərbaycan təsviri və tətbiqi sənətləri sərgilərdə dəfələrlə Moskvada, Kiyevdə, Riqada, Tiflisdə, İrəvanda və digər şəhərlərdə, həmçinin xaricdə açılan sərgilərdə nümayiş etdirilmişdir.

Lətif Kərimov bir yaradıcı sənətkar kimi istehsalatla daim əlaqə saxlayır. Respublikamızın xalçaçılıq fabriklərində, digər bədii sənaye müəssisələrində onun məsləhətləri, tənqidi mülahizələri həmişə hörmətlə, minnətdarlıqla qarşılanır. Bu müəssisələrin çoxunda onun şagirdləri fəaliyyət göstərirlər. Şəxsən mən bir neçə dəfə Lətiflə Qubanın, Qusarın, Dəvəçinin və Bakının xalça fabriklərində olmuşam. Onun öz göstərişləri ilə, məsləhətləri ilə xalçaçıları həvəsləndirdiyini görmüşəm. O, çox zaman dediklərini əyani surətdə təcrübədə tətbiq edir, dəzgah arxasına keçib, ilmə vurur, rəngləri göstərirdi.

Lətif Kərimov Azərbaycan ədəbiyyatına və musiqisinə, həmçinin başqa Şərq xalqlarının ədəbiyyatına və musiqisinə də yaxşı bələddir. O, Şərq musiqisinə aid yüzlərlə termin toplayıb, şərh etmiş, musiqi tariximizə aid maraqlı məqalələr yazmışdır.

Milli tətbiqi sənətlər sahəsində gözəl ənənələri olan Azərbaycanda bu sənətlərin indiki vəziyyəti təbiidir ki, Lətif Kərimovu qane etmir. Təcrübəli sənətkar dekorativ-tətbiqi sənətləri irəli aparmağa qadir ustalar hazırlamaq üçün böyük əmək sərf edir. İndi o, bizim teatr institutunda dekorativ sənətləri öyrənən gənclərə dərs deyir. Rəssamlar ittifaqının müvafiq bölməsində birləşən gənc rəssamlara yaxından kömək göstərir.

Qədirbilən Azərbaycan xalqı öz görkəmli sənətkarının yaradıcılıq - elmi fəaliyyətini layiqincə qiymətləndirmişdir. Lətif Kərimova bir neçə il bundan əvvəl Azərbaycan SSR xalq rəssamı fəxri adı verilmişdir. Bu günlərdə isə o, Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir.

Ornament ustası, qabil nəqqaş Lətif Kərimov illərdən bəri memarlıq və incəsənət institutunun dekorativ sənətlər şöbəsinə rəhbərlik edir. Ona, hər şeydən əvvəl, möhkəm cansağlığı, elmi işində, yaradıcılıq fəaliyyətində yeni-yeni müvəffəqiyyətlər arzulayırıq!

1966